#4GlobalBakuForum

# IV Qlobal Bakı Forumu

## Bəşəriyyəti düşündürən problemlərin həllinə xidmət edən platforma

**Regionun lider dövləti olan Azərbaycan həm də beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi tanınır. Xüsusilə ölkəmizin humanitar əməkdaşlığın gündəliyini müəyyənləşdirən təşəbbüslər irəli sürməsi, bu istiqamətdə genişformatlı tədbirlər keçirməsi dünyada maraqla izlənilir. Bununla bərabər, Azərbaycanın inkişafı, dünya birliyində nüfuzunun artması ölkəmizdə tərəqqiyə və qarşılıqlı anlaşmaya xidmət edən belə konfransların, forumların tez-tez keçirilməsinə təsir göstərir. Bu isə öz növbəsində, qloballaşan dünyada dialoqa, qarşılıqlı anlaşmaya kömək edən amillərdir.**




Qlobal və humanitar məsələləri əhatə edən forumların keçirilməsi üçün məhz ölkəmizin seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu formatlarda tədbirlərin keçirilməsi üçün həqiqətən də əvəzsiz məkandır. Bu, Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfə verən ölkə statusunu daha da möhkəmləndirir və dünyanı düşündürən məsələlərin müzakirə edildiyi beynəlxalq tədbirlərin məhz ölkəmizdə keçirilməsini şərtləndirir. Təbii ki, bütün bunlar həm də respublikamızın beynəlxalq səviyyədə artan nüfuzundan və imicindən xəbər verir. Azərbaycan bu gün həm də mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə bir mərkəz kimi beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Bu gün qloballaşan və dəyişən dünya nizamında sivilizasiyalar arasında münasibətlərin yeni formaları yaranır, dəyərlər sisteminin arxitekturasında dəyişikliklər baş verir, fərqli düşüncə mədəniyyəti formalaşır. Bütün bu amillər qlobal problemlərin müzakirəsi istiqamətində də yeni platformanı formalaşdırmaq zərurətini yaradır. Artıq 4 ildir keçirilən Qlobal Bakı Forumu bu istiqamətdə mühüm və özünü beynəlxalq səviyyədə təsdiqləmiş beynəlxalq platformadır. Bu günlərdə Azərbaycan artıq dördüncü dəfə keçirilən bu foruma uğurla evsahibliyi edir.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumu martın 10-11-də Bakıda keçirildi. "Çoxqütblü dünyaya doğru" mövzusunda keçirilən forumun Tədbirlər Planı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə təsdiq edilmişdi. Mövzuya uyğun olaraq, forumda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edildi.

Qlobal Bakı Forumu dünyanı düşündürən məsələlərin müzakirə edildiyi çox əhəmiyyətli məkandır. Bu fikir IV Qlobal Bakı Forumunda iştirak edən nüfuzlu dövlət və hökumət başçılarının, siyasətçilərin və tanınmış ictimai xadimlərin çıxışlarında dönə-dönə vurğulandı. Onlar iki gün ərzində Bakıda qloballaşmanın geniş vüsət aldığı bir dövrdə dünyanı ciddi narahat edən məsələləri - dünyada etnik və siyasi zəmində baş verən münaqişələri, təhsil, ekologiya sahəsində olan problemləri müzakirə edərək həlli yollarının tapılması istiqamətində səmərəli fikir mübadiləsi apardılar. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də forumun gündəliyinə daxil idi. Bu mənada Bakı Qlobal Forumu XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, bu istiqamətdə əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair genişspektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu siyasi tədbirdir.

Qlobal Bakı Forumu artıq ənənə halını aldığı üçün onun həm iştirakçılarının, həm də gündəliyindəki məsələlərin sayı ilbeil artır. Xatırladaq ki, III Qlobal Bakı Forumunda ümumilikdə 200-dən artıq nümayəndə iştirak edib. IV forumda isə Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla 53 ölkədən 300-dən çox nümayəndə gəlmişdi. Forumda hələ əvvəldən bir sıra ölkələrin dövlət və hökumət başçılarının, habelə tanınmış nüfuzlu siyasi xadimlərin iştirakı gözlənilirdi. Onların müasir dünyanın nizamı barədə baxışları zəngin bilikləri və təcrübələrinə əsaslanaraq qlobal problemlərin həlli istiqamətində olduqca mühüm əhəmiyyət kəsb edir.

Forumun açılışında çıxış edən Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, tədbirdə iştirak edən qonaqlar dəyərli fikir və ideyaları ilə dünyada sülh, təhlükəsizlik və proqnozlaşdırıla bilmə naminə bu işə töhfələrini verəcəklər: *"Qonaqlarımız arasında 50-dən artıq hazırkı və sabiq dövlət və hökumət başçıları, görkəmli siyasətçilər, ictimai xadimlər və mütəxəssislər vardır. Bu isə bizim bu gün və sabah aparacağımız müzakirələrin səviyyəsini nümayiş etdirir. Sonuncu dəfə ötən ilin yazında görüşümüzdən bu günədək dünyada vəziyyət dəyişmişdir. Hamımız bunun şahidiyik və təəssüf ki, dəyişikliklər müsbət məcrada olmamışdır. Dünya daha da sakit və təhlükəsiz olması əvəzinə daha da təhlükəli olmuşdur. Bizim regionda da vəziyyət kəskin şəkildə dəyişmişdir. Mövcud münaqişələr həll edilməmiş qalır, bununla yanaşı, yeni münaqişələr, yeni qarşıdurma və təhlükə bölgələri yaranmışdır. Bu səbəbdən, hesab edirəm ki, dövlət və hökumət başçıları, siyasətçilər olaraq biz gərginliyin azaldılması üçün rolumuzu oynamalıyıq. Çalışmalıyıq ki, əməkdaşlıq, qarşılıqlı anlaşma və hörmət üçün zəmin yaransın. Əks təqdirdə, gələcəkdə vəziyyət pisləşməkdə davam edəcək"*.

Forumun "Müasir dövrdə dünyanın vəziyyəti. Gələcəyin çətin problemlərinin həllində nəyə ehtiyac duyulur?" mövzusunda keçirilən sessiyasında çıxış edənlər müasir dünyada yaşanan problemlərin müzakirə edilməsini yüksək qiymətləndirdilər. Qeyd edildi ki, təhlükəsizliyin pozulması bütün cəmiyyətlər və ölkələr üçün ciddi təhlükədir. Beynəlxalq sülhün və əməkdaşlığın inkişafında etnik və dini tolerantlığın mühüm rol oynadığını bildirən siyasətçilər müasir dövrdə baş verən münaqişələrin həllində dövlətlərin və beynəlxalq təşkilatların fəal və ciddi mövqe ortaya qoymalarının, yeni üsulların tapılmasının zəruriliyini diqqətə çatdırdılar. Çıxışlarda o da qeyd edildi ki, XXI əsrin ən müasir texnologiyalarından istifadə edən beynəlxalq terrorçu qruplaşmalarla mübarizədə beynəlxalq təşkilatlar hələ də passiv mövqe nümayiş etdirir, müəyyən bəyannamə və qərarların qəbulu ilə bu problemlərlə mübarizə aparmağa çalışırlar. Bu da həmin terrorçu qruplaşmaların öz fəaliyyətlərini daha da genişləndirmələrinə şərait yaradır.

IV Qlobal Bakı Forumu çərçivəsində keçirilən və maraqlı müzakirələrlə yadda qalan panel iclaslarından biri də "Gənclər danışır, biz dinləyirik" mövzusuna həsr edilmişdi. Gənc liderlərin dünyadakı roluna həsr olunan panel iclasında qlobal problemlər, yeni çağırışlar barədə fikir mübadiləsi aparıldı, mövcud problemlərin həlli yolları müzakirə olundu. İclasda çıxış edən gənclər forumda müzakirə edilən məsələlərin böyük önəmə malik olduğunu bildirdilər. Dünyada baş verən qlobal problemlərin həlli yollarının tapılması istiqamətində gənclərin də fikirlərinin, ideya və təkliflərinin öyrənilməsinin vacibliyi qeyd edildi. Bildirildi ki, Bakı forumunda müzakirə olunan məsələlər dünyada işsizlik, miqrasiya, insan alveri və digər problemlərin həllinin araşdırılmasına əhəmiyyətli töhfə verəcək. Bir sözlə, dünyada sülhün və sabitliyin təmin olunmasına xidmət edən bu forumun uğurlu nəticələri olacaq.

Forumun "XXI əsrdə qurulmaqda olan çoxqütblü dünyanın münaqişələrindən necə yan keçməli?" mövzusundakı plenar sessiyasında çıxış edənlər isə qlobal cəmiyyətdə dünya nizamının hazırkı vəziyyəti ilə bağlı böyük narahatlığın olduğunu vurğulayıblar. Bildirilib ki, BMT Təhlükəsizlik Şurası özünün mühüm missiyasına baxmayaraq, problemlərin həlli qarşısında aciz qalıb. Məhz səmərəli idarəçiliyin olmaması və böyük güclərin fəaliyyətsizliyi nəticəsində hazırda dünyanın bir çox yerində humanitar fəlakət yaşanır, tarixi, mədəni irs məhv edilir. Buna görə də nəinki BMT Təhlükəsizlik Şurasında, bütövlükdə BMT-də mühüm islahatlar aparılmalıdır.

Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa da BMT-nin fəaliyyətinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq əsasən böyük dövlətlərin beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmədiyini bildirdi. O qeyd edib ki, böyük dövlətlərin öz maraqlarını güdərək fəaliyyət göstərmələri digər dövlətlərin suveren hüquqlarını pozur: "Ona görə də dünyada sülhü qorumaq üçün insanlar, ölkələr və təşkilatlar olaraq biz humanist ideyalara sadiq qalmalı, onu geniş şəkildə yaymalı, qarşılıqlı dialoqu gücləndirməliyik".

Forumda "İran və Əfqanıstan. Xəzər regionu və Mərkəzi Asiyanın təhlükəsizliyinin və inkişafının əsasları. Növbəti region hansıdır?", "Radikallaşma və miqrasiya qlobal təhlükəsizlik çağırışı kimi. Birgə fəaliyyətə necə nail olmalı?", "Qeyri-bərabər bölünmüş dünyadan müştərək cəmiyyətə doğru yerdəyişmə: Necə?", "İnsan hüquqlarının qlobal təşviqi və gender məsələləri ilə bağlı məlumatlılığın artırılması", "Miqrasiya, multikulturalizm və inteqrasiya məsələsi" mövzularına həsr olunmuş panel iclaslarında bu mövzularla bağlı çıxışlar edildi, müzakirələr aparıldı. Müxtəlif ölkələrdən olan siyasətçilər, alimlər, ictimai xadimlər müzakirə olunan məsələlərlə bağlı təkliflər verdilər, problemlərdən çıxış yolları göstərdilər.

Beləliklə, IV Qlobal Bakı Forumunun iştirakçıları bu dəfə çoxqütblü dünyanın yaradılması prinsiplərini müzakirə etdilər, bəşəriyyəti narahat edən problemlərin həlli yollarının tapılması məsələsini araşdırdılar. Bir məsələni də qeyd etməliyik ki, əvvəlki illə müqayisədə builki forumda müzakirə edilən mövzular daha əhatəli idi. Nəticə isə budur ki, beynəlxalq təşkilatlar, siyasətçilər problemlərin həlli istiqamətində daha fəal olmalı və bütün imkanlarını səfərbər etməlidirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***